

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 178 (21.079)

*18 sentyabr 2014-cü il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi realist ədəbiyyatın inkişafında, məktəb, teatr və mətbuat sahəsində əvəzsiz xidmətlər göstərmişdir. Onun yaratdığı məktəblər Azərbaycanda təhsilin, əsərləri isə maarifçi düşüncənin və ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. Böyük pedaqoq Məhəmməd Tağı Sidqinin maarifçilik hərəkatının inkişafı naminə xidmətləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlamaqdadır.

Məhəmməd Tağı Sidqinin həyatının və yaradıcılığının öyrənilməsi və təbliği məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Məhəmməd Tağı Sidqinin Ordubad şəhərində yaşadığı evdə muzeyi yaradılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 sentyabr 2014-cü il*

## Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomunun təsvirinin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomunun təsviri təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 sentyabr 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomunun TƏSVİRİ

Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomu parıltılı kağızdan hazırlanır və eni 11 sm, uzunluğu isə 16 sm olan dörd səhifədən ibarətdir (təsvir əlavə olunur).

Diplomun birinci səhifəsində Dövlət gerbi təsvir edilir, Dövlət gerbinin yuxarısında "Azərbaycan Respublikası", aşağısında isə "Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomu" sözləri yazılır.

İkinci səhifədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamının tarixi, nömrəsi və mükafata layiq görülmüş əsərin (işin) müəllifinin (müəlliflərinin) soyadı, adı və atasının adı verilir.

Üçüncü səhifədə mükafata layiq görülmüş əsərin (işin) adı və mükafatın verilməsi barədə müvafiq mətn verilir.

Dördüncü səhifədə diplomun nömrəsi, qalibin soyadı, adı, atasının adı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin adı və soyadı göstərilir.

Diplom Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanır.

Diplom qalibə tünd-qırmızı rəngli dəri cildlikdə təqdim olunur.

Cildliyin üz hissəsində qızılı rəngdə Dövlət gerbi təsvir edilir, Dövlət gerbinin yuxarısında "Azərbaycan Respublikası", aşağısında isə "Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomu" sözləri yazılır.

### Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomunun cildliyinin üz hissəsi

**Azərbaycan Respublikası**

**Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin**

**DİPLOMU**

### Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomunun birinci və ikinci səhifələri

**Azərbaycan Respublikası**

**Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin**

**DİPLOMU**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi

Sədrinin 201__ il ______ tarixli ___ nömrəli

Sərəncamı ilə

______________________________

(soyadı, adı, atasının adı)

______________________________

### Naxçıvan Muxtar Respublika Mükafatı Qalibinin Diplomunun üçüncü və dördüncü səhifələri

______________________________

(əsərin (işin) adı)

______________________________görə

Naxçıvan Muxtar Respublika Mükafatı verilmişdir

Diplom № ____

Bu diplom

______________________________

(soyadı, adı, atasının adı)

verilmişdir

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

# Səhiyyə yarmarkası keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə səhiyyə işçiləri üçün əmək yarmarkası keçirilib.*



Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb. Bildirilib ki, son illər səhiyyənin inkişafında, tibbi xidmətin yüksək səviyyədə aparılmasında, tibbi kadrların hazırlanmasında müəyyən uğurlar əldə olunub. Səhiyyədə gedən islahatlar çərçivəsində əhaliyə göstərilən tibbi xidmətin gücləndirilməsi məqsədilə şəhər və rayonlarda müasir tibb avadanlıqları və texnika ilə təchiz edilmiş yeni səhiyyə müəssisələri istifadəyə verilib, fəaliyyət göstərən tibb müəssisələrində əsaslı təmir işləri aparılıb. Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 7 iyul tarixli qərarı ilə təsdiqlənmiş “2010-2014-cü illər üçün Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrində tibbi kadr təminatı üzrə İnkişaf Proqramı” xüsusi əhəmiyyət kəsb edir və kadr probleminin həllində, eləcə də qarşıya qoyulmuş məqsədlərə nail olmaqda tam istiqamətləndirici və tənzimləyici xarakter daşıyır.

Niyazi Novruzov kənd yerlərindəki səhiyyə müəssisələrinə tibbi kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri ilə əlaqədar görülən işlərdən danışıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq, bu illərdə səhiyyə sahəsində qarşıya qoyulan məqsədlərə nail olunmasında işlə təmin olunacaq gənc kadrların üzərinə düşən vəzifələr barədə məlumat verib, onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikada daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Buna görə də vaxtaşırı olaraq əmək yarmarkalarının keçirilməsi əməkqabiliyyətli əhalinin işlə təmin edilməsində mühüm rol oynayır. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən əmək yarmarkaları indi işaxtaran vətəndaşların ən çox üz tutduqları ünvandır. Belə tədbirlər əhalinin rifah halının yaxşılaşdırılmasına, işaxtaran vətəndaşların işlə təmin olunmasına xidmət edir.

Azərbaycan Tibb Universitetinin məzunu, işaxtaran Könül Zeynalova gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, tədbirin təşkilatçılarına öz minnətdarlığını bildirib.

Sonra işaxtaranlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birinci mərtəbəsində təşkil olunmuş əmək yarmarkasında boş iş yerləri ilə tanış olublar. Yarmarkada həkimlər üçün 476, orta tibb işçiləri üçün isə 139, bütövlükdə, 615 vakant yer təklif edilib.

Gün ərzində davam edən əmək yarmarkasında 11 nəfər işlə təmin olunub.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Naxçıvanda keçirilən MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası başa çatıb





***Müstəqil Dövlətlər Birliyi (MDB) İcraiyyə Komitəsinin təşəbbüsü və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında keçirilən MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası sentyabrın 17-də başa çatıb.***

Azərbaycan Respublikası tərəfindən iclasa sədrlik edən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin rəisi Səfər Qurbanov iclasın yekun qərarı barədə iştirakçı dövlətlərin nümayəndələrini ətraflı məlumatlandırdı.

İclasın yekun qərarı müzakirəyə çıxarıldı, təkliflər də nəzərə alınmaqla yekdilliklə qəbul edildi. Qərarda iştirakçı dövlətlər arasında təhlükəli istehsal obyektlərində sənaye təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanır. Bu istiqamətdə əldə edilmiş təcrübələrdən birgə yararlanmağın önəmi qeyd olunur. İştirakçı dövlətlərin qanunvericiliyindəki müsbət dəyişikliklərin əhəmiyyəti qeyd olunmaqla bərabər, neft-qaz sahəsində, o cümlədən mürəkkəb və təhlükəli istehsalat obyektlərində təhlükəsizliyin təmin edilməsi ilə bağlı qarşılıqlı təcrübə mübadiləsinin bundan sonra da konkret istiqamətlərdə davam etdirilməsinin vacibliyi diqqətə çatdırılır.

Sonda iclasın yekun qərarının imzalanma mərasimi keçirildi.

Həmin gün qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi və Naxçıvan Biznes Mərkəzi ilə tanış oldular. Fizioterapiya Mərkəzinə gələn qonaqlara xəstəxana barədə ətraflı məlumat verildi. Bildirildi ki, 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunub. Yaradılmış şərait hər il dünyanın bir sıra ölkələrindən müalicə olunmaq, şəfa tapmaq üçün bura gələnlərin sayını artırıb.

Sonra qonaqlar muxtar respublikanın biznes mühitinin və imkanlarının nümayişi, təbliği baxımından mühüm rola malik olan Naxçıvan şəhərindəki Biznes Mərkəzində oldular. Bildirildi ki, burada yaradılan şərait müxtəlif tədbirlərin, biznes forumların, işgüzar görüş və konfransların yüksək səviyyədə təşkilinə imkan verir.

Bununla da, MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası öz işini yekunlaşdırdı.

Xatırladaq ki, təhlükəli istehsalat obyektlərində sənaye təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında saziş 2001-ci il sentyabrın 28-də Moskvada MDB dövlətlərinin hökumət başçıları tərəfindən qəbul edilib. Bu sazişin həyata keçirilməsi üçün Sənaye Təhlükəsizliyi üzrə Dövlətlərarası Şura yaradılıb. Şuranın iclasları hər il sazişin iştirakçısı olan dövlətlərin birində keçirilir. Sənədə müvafiq olaraq, MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası sentyabrın 16-17-də Azərbaycanın Naxçıvan Muxtar Respublikasında keçirildi.

**Rauf ƏLİYEV**

### 18 sentyabr Milli Musiqi Günüdür

# Azərbaycan musiqi mədəniyyəti zəngin ənənələrə malikdir

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu günün – 18 sentyabrın “Milli Musiqi Günü” kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. Həmin tarixdən etibarən hər il sentyabrın 18-i ölkəmizdə “Milli Musiqi Günü” kimi qeyd olunur.***

Böyük bəstəkar və ictimai xadim Üzeyir Hacıbəyov Azərbaycan musiqi sənətinə əvəzsiz töhfələr vermiş, Şərq və Qərb musiqi mədəniyyətləri arasında körpü yaratmış, çoxəsrlik musiqi ənənələrini inkişaf etdirərək yeni mərhələyə yüksəltmişdir. Azərbaycanda peşəkar musiqinin banisi, bəstəkarlıq məktəbinin, musiqili komediya janrının yaradıcısı olan Üzeyir Hacıbəyov Şərqdə operanın və operettanın əsasını qoymuş, dövlət xoru, simfonik orkestr yaratmış, dünya musiqi xəzinəsini öz əsərləri ilə zənginləşdirmişdir.

Dahi bəstəkarın yaradıcılığı doğma Azərbaycanımızın hüdudlarını aşaraq ona dünya şöhrəti qazandırmışdır. Bu sənət milli və coğrafi sərhədlər tanımır, onun zəngin milli və ümumbəşəri duyğuları əks etdirən əsərləri dünyanın müxtəlif ölkələrində ifa olunur, dinlənilir və sevilir. Üzeyir Hacıbəyov təkcə Azərbaycan professional musiqisinin banisi kimi deyil, həm də böyük alim, maarifçi, dramaturq, publisist, pedaqoq, ictimai xadim kimi Azərbaycan tarixində görkəmli yer tutur. Ümummilli liderimiz Heydər Əliyev bəstəkarın şəxsiyyətinə və yaradıcılığına yüksək qiymət verərək deyirdi: ***“Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar – gənclər, vətəndaşlarımız məhz Üzeyir Hacıbəyovun əsərlərindən ruhlanaraq Vətənimizi sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır”.***

Qədim tarixə malik olan Azərbaycan musiqi sənətinin inkişafı ötən əsrin 70-ci illərində daha dinamik xarakter almışdır. Həmin dövrdə ulu öndər milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov kimi dünya səviyyəli bəstəkarlarımızın yaradıcılığını yüksək qiymətləndirmiş, Azərbaycan musiqi mədəniyyətinin inkişafına böyük qayğı göstərmişdir. Korifey sənətkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov bu dövrdə “Sosialist Əməyi Qəhrəmanı” adına layiq görülmüşlər. Ümummilli liderimiz ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan musiqisinin inkişafına böyük qayğı göstərmiş, ixtisaslı musiqiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir. Tanınmış bəstəkar və musiqiçilər “Şöhrət” və “İstiqlal” ordenləri ilə təltif olunmuş, fəxri adlara, Prezident mükafatı və təqaüdünə layiq görülmüşlər.

Bu gün ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, konsert salonları təmir edilir və yenidən qurulur, maddi-texniki bazaları gücləndirilir, milli musiqiçi kadrların yetişdirilməsi istiqamətində uğurlu layihələr həyata keçirilir. Son illər keçirilən Beynəlxalq Üzeyir Hacıbəyov Musiqi Festivalı, Vokalçıların Bülbül adına V Beynəlxalq Müsabiqəsi, Bakı Beynəlxalq Caz Festivalı, IV Beynəlxalq Rostropoviç Festivalı, I Beynəlxalq Aşıq Festivalı, III Beynəlxalq Muğam Festivalı, Beynəlxalq Muğam Simpoziumu, VI Qəbələ Beynəlxalq Musiqi Festivalı və başqa yüksək səviyyəli tədbirlər ölkəmizdə musiqi mədəniyyəti sahəsində görülmüş işlərin əyani təzahürüdür.

***“Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycanın bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti Azərbaycanın musiqi mədəniyyəti ilə sıx bağlıdır”***, – deyən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə milli musiqi sənətimizin tanıdılması və təbliği istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət başçısının sərəncamı ilə yaradılan və yüksək səviyyədə inşa olunaraq istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi qədim sənətə diqqət və qayğının daha bir ifadəsidir. 2011-ci ildə ölkəmizin “Eurovision” mahnı müsabiqəsində qalib gəlməsi və 2012-ci ilin may ayında Bakı şəhərində 57-ci “Eurovision” mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi isə Azərbaycanın musiqi mədəniyyətini və yüksək təşkilatçılıq imkanlarını bir daha dünyaya nümayiş etdirmişdir.

Musiqi mədəniyyətimizin inkişafı sahəsində həyata keçirilən tədbirlərdə Heydər Əliyev Fondu da yaxından iştirak edir. 2005-ci ilin martında Parisdə “Qarabağ xanəndələri” albomunun təqdimat mərasiminin keçirilməsi, “Üzeyir Hacıbəyov Ensiklopediyası”nın, “Muğam Ensiklopediyası”nın, “Muğam” jurnalının işıq üzü görməsi mədəniyyətimizin tanıdılması sahəsində həyata keçirilən mühüm tədbirlərdəndir. 2003-cü ildə Azərbaycanın muğam, 2009-cu ildə aşıq sənətinin, 2012-ci ildə tar ifaçılığı sənətinin YUNESKO tərəfindən “Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı”na daxil edilməsi isə qədim musiqi mədəniyyətimizə verilən qiymətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Bu qayğı son 18 ildə daha dinamik xarakter almış, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmişdir. Filarmoniyanın xarici ölkələrə qastrol səfərləri təşkil edilmiş, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda, Türkiyədə və Polşada uğurla çıxış etmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı da hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. 2012-ci ilin fevralında yenidənqurmadan sonra istifadəyə verilən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında təşkilat üçün də iş otaqları ayrılmış, yüksək iş şəraiti yaradılmışdır.

Musiqimizin inkişafı istiqamətində görülən tədbirlərdən bəhs edərkən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin fəaliyyətinin genişləndirilməsinə göstərilən dövlət qayğısını da xüsusilə qeyd etmək lazımdır. Bu gün muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Aparılan genişmiqyaslı quruculuq işləri uşaq musiqi məktəblərini də əhatə etmiş, son illərdə 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Naxçıvan şəhərinin Qaraçuq kəndində Uşaq Musiqi Məktəbinin yenidən qurulması, Uşaq İncəsənət Məktəbi, 2 nömrəli Uşaq Musiqi Məktəbi, Culfa rayonundakı Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi üçün yeni binanın inşa olunması bu sahədə işlərin davamlı və ardıcıl aparıldığını göstərir.

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir.1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmışdır. Həmin tarixdən etibarən Novruz bayramı ərəfəsində keçirilən şənliklərdə Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətləri və aşıq sənətini yaşadan musiqi kollektivlərinin çıxışları təşkil edilir. Artıq muxtar respublikada aşıq sənətinin yaşadılması, aşıq musiqisinin inkişafı sahəsində görülən işlər öz bəhrəsini vermiş, gənc ifaçılar nəsli yetişmişdir.

Muxtar respublikanın musiqi kollektivlərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, səmərəli fəaliyyətlərinə görə musiqiçilərimiz Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülmüşlər.

*Azərbaycan musiqisi bu gün sevilir, qorunur, yaşadılır və təbliğ edilir. Milli musiqimizin hamisi və onun gələcəyinə böyük ümid bəsləyən ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi:* ***“…Bizim gözəl incəsənətimiz, mədəniyyətimiz, bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən, onun əsasında yaranan müasir, peşəkar musiqimiz var. Zənnimcə, peşəkar musiqimiz həm görkəmli bəstəkarlarımızın, həm də mahir ifaçılarımızın ən böyük nailiyyətidir. Bu, məni sevindirir. Bütün respublikamız, xalqımız da buna sevinir. Bunun gələcəkdə də davam etməsini arzulayıram, ümidvaram ki, belə də olacaqdır”.***

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

# Sərxanlının bərəkətli torpaqları, fədakar insanları var

## *Qayğı artır, torpaqlardan səmərəli istifadə edilir, gün-güzəran yaxşılaşır*



***Payız yavaş-yavaş yurdumuza qədəm qoymağa hazırlaşır. Təbiət artıq donunu dəyişməyə başlayır. Payız yaxınlaşdıqca insanların qayğıları da çoxalır. Xüsusilə də kənd yerlərində yaşayan insanlar yetişdirdikləri məhsulların tədarükünü başa çatdırmağa, qışa hazırlığı yekunlaşdırmağa, əkin sahələrinin gələn il üçün hazır vəziyyətə gətirilməsinə tələsirlər. Şərur rayonunun Sərxanlı kəndinə yolumuz belə günlərin birində düşdü. Kartof sahələrində, tərəvəz tarlalarında, biçənəklərdə böyük həvəslə çalışan insanlar gözümüzdən yayınmadı. Zəmilərdə isə ən çox nəzərimizi cəlb edən şum qaldıran, torpağın altını üstünə çevirən traktorlar idi.***

Yadıma neçə illər qabaq buralarda gördüyüm mənzərələr düşdü. Texnikanın azlığı, suyun olmaması kənd adamlarının əlini işdən soyutmuşdu. Torpaqlar onlara verilsə də, imkansızlıq ucbatından əkilmirdi. Muxtar respublikaya yeni texnikaların gətirilməsi, genişhəcmli meliorasiya tədbirlərinin həyata keçirilməsi, torpaq mülkiyyətçilərinə kreditlərin, müxtəlif yardımların verilməsi, onların məhsuldar toxum sortları ilə təchiz olunması şərurluların, eləcə də sərxanlıların torpağa münasibətini kökündən dəyişdirdi. Bu gün hər bir qarış sahənin qədri bilinən bu yurd yerində hamı torpaqdan ikiəlli yapışıb. Sərxanlılar yaxşı dərk edirlər ki, torpaq ən etibarlı ruzi-bərəkət mənbəyidir, daimi iş yeridir, gün-güzəranın yüksəldilməsində qiymətli sərvətdir. Ona görə də bu sərvətin qədrini bilirlər.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Asəf Quliyevlə müəyyənləşdirdiyimiz vaxtda kəndin mərkəzində görüşdük. Həftənin şənbə günü olduğundan iməciliyə çıxmışdılar. Kənddə fəaliyyət göstərən qurumlarda çalışan insanlar doğma yurd yerində səliqə-sahman yaradır, abadlıq işləri görürdülər. Bu ümumxalq tədbirinə onların ürəkdən qoşulduqlarını hiss etmək çətin deyildi. Yeni tikilmiş sosial obyektlərin həyətlərində, yol kənarlarında əkilmiş meyvə və bəzək ağaclarının, gül kollarının kəndə verdiyi yaraşıqdan da bunu görmək olurdu. O həqiqətə bir daha inandım ki, hər bir insanı gördüyü işə əməyinin bəhrəsi daha dərindən bağlayır. Yaşıllaşdırma, abadlıq tədbirlərinin isə xeyrini bütün cəmiyyət görür. Ona görə də Sərxanlı kəndinin sakinləri də bir neçə ildir, geniş vüsət alan bu tədbirlərdə fəallıq göstərirlər.

Asəf Quliyevin dediklərindən:

– Kəndimizin ümumi sahəsi 125 hektardır. 168 təsərrüfatda birləşmiş 550 sakinin ruzi-bərəkət mənbəyinə çevrilən torpaqdan səmərəli istifadə olunur. Camaat əkin sahələrində bol kənd təsərrüfatı məhsulları yetişdirir, əsasən, əkinçilik və heyvandarlıq inkişaf etdirilir. Son illər kənd təsərrüfatı sahəsində çalışan insanlara göstərilən dövlət qayğısı aqrar sahədə böyük uğurlar qazanılmasına şərait yaradıb. Bundan başqa, suvarma sistemlərinin müntəzəm olaraq təkmilləşdirilməsi, ən müasir texniki avadanlıqların fermerlərin istifadəsinə verilməsi, məhsulun alıcı məsələsinin həlli də inkişafa təkan verib.

Digər yaşayış məntəqələrimiz kimi, Sərxanlıda da taxılçılığın iqtisadi cəhətdən xeyli gəlir gətirən sahə olduğu sınaqdan çıxarılıb. Odur ki, bu sahəyə maraq ildən-ilə artır. Cari ilin yekunları da kənd adamları üçün uğurlu olub. Qeyd edək ki, Sərxanlı taxılçıları 25,1 hektarda əkin keçirmiş, səpin zamanı məhsuldar sortlardan istifadəyə üstünlük vermiş, zəmilərə aqrotexniki qaydada qulluq etmiş, bol məhsul istehsalına nail olmuşlar. Torpaq mülkiyyətçiləri Həsən Qurbanov, Samil Rəhimov, Adil Orucov və başqaları daha çox taxıl tədarük ediblər. Kənd sakini Qəzənfər Quliyevin söhbəti:

– Kəndin bərəkətli torpaq sahələri var. Sakinləri də əməksevər, fədakar, torpağa bağlıdırlar, kəndin müəllimi də, həkimi də, digər peşə sahibi də bu qiymətli sərvətdən möhkəm yapışıb. Onlara bol məhsul istehsalı üçün hərtərəfli şərait yaradılıb. Təbii imkanlar, dövlət qayğısı, torpağa məhəbbət hissi olan yerdə isə hər cür bolluq yaradılmasına, yaxşı gün-güzəranın təmin edilməsinə nail olmaq mümkündür. Mən həm də traktorçuyam. Öz texnikamla həmkəndlilərimə kömək etməklə bərabər, 2 hektar sahədə taxıl əkmişdim və yaxşı da məhsul əldə etdim. Payız əkini üçün toxumluq normasını və ailəmin illik tələbatını ayırdıqdan sonra yerdə qalanını satır, digər ehtiyaclarımı ödəyirəm. Artıq şum işinə başlamışıq. Çünki ata-babalarımız deyiblər ki, taxıl iki yay görməlidir. Ona görə də Sərxanlıda taxıl əkənlərin hamısı çalışıb ki, yay şumunu vaxtında yekunlaşdırsın.

Həsən Qurbanov da taxılçılıqda xeyli təcrübə əldə edən torpaq mülkiyyətçisidir. Onun da bu sahədəki uğuru qənaətbəxşdir:

– Taxılçılıq Sərxanlı camaatının tarixən məşğul olduğu təsərrüfat sahəsidir. Son illər isə dövlət qayğısı bu sahəyə marağı daha da gücləndirib. Bu qayğını həm də onlar rayonda fəaliyyət göstərən un dəyirmanlarının, çörəkbişirmə sexlərinin timsalında görürlər. Əvvəllər buğda əkininə bir o qədər də fikir verilmirdi, çünki tədarük olunan məhsulun üyüdülməsində çətinliklərlə qarşılaşırdıq. Ancaq bu problemin aradan qaldırılması və taxılçılıqda qazanılmış təcrübənin tətbiqi bol və keyfiyyətli məhsul istehsalına şərait yaradıb. Təkcə bu il hər hektardan 35 sentner "sarı kəhrəba" götürmüşük.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən quruculuq siyasəti bütün bölgələrimiz kimi, Şərur rayonunun kəndlərini də öz ağuşuna alıb. Kompleks tikinti-quruculuq işləri aparılmış yaşayış məntəqələri sırasına keçən il Sərxanlı kəndi də qoşulub. Kənddə 234 şagird yerlik tam orta məktəb binası, həkim ambulatoriyası, kənd mərkəzi və xidmət mərkəzi istifadəyə verilib. Yeni obyektlərin istifadəyə verilməsi əhalinin sosial problemlərinin həlli baxımından böyük əhəmiyyət kəsb edib. Yaradılmış şərait imkan verir ki, kənddə məskunlaşma artsın, əhalinin yaşayış səviyyəsi daha da yaxşılaşsın.

Yeni məktəb binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Hər bir ölkənin inkişafı təhsildən başlayır. Təhsil ümumxalq işinə çevrilməli, cəmiyyət, dövlət, vətəndaşlar bu sahənin inkişafında yaxından iştirak etməlidir. Bu gün orta məktəblərdə təhsil alan gənclər bilikli və savadlı olmaqla yanaşı, öz qabiliyyətlərinə uyğun peşəyə də yiyələnməli, onu dərindən öyrənməlidirlər. Bu mənada təhsilin inkişafı həm də ölkənin, cəmiyyətin, xalqın inkişafı deməkdir".***

Qarşıya qoyulan məqsəd aydındır. Qalır ki, kollektiv göstərilən qayğıya əməli işi ilə cavab vermək üçün yaradılan şəraitdən səmərəli istifadə etsin, gələcəyimiz etibar olunacaq bugünkü məktəblilərin intellektual səviyyədə yetişmələri üçün səyini əsirgəməsin. Pedaqoji kollektiv bu vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. 2012-2013-cü dərs ilində məktəbi bitirən məzunlardan ikisi ali məktəblərə, ikisi orta ixtisas məktəblərinə qəbul olunub. Bu il isə 3 məzun ali məktəb tələbəsi adını qazanıb, orta ixtisas məktəblərinə qəbul olunanlar da var.

Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan məktəbdə müəllim və şagirdlərin ixtiyarına 13 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet və idman zalı verilib. Təhsil ocağında yaradılan zəngin kitabxananın fondunda 7 min 452 kitab vardır. Yeni binada informasiya-kommunikasiya texnologiyaları ilə təminat da diqqətdə saxlanılıb, 14 kompüter quraşdırılıb və internetə qoşulub. Məktəb binasında elektron lövhəli siniflər də yaradılıb, dərslərin bu siniflərdə tədrisi təşkil olunub. Tədris prosesində əyani vəsaitlərdən və elektron dərsliklərdən geniş istifadə olunur. Kimya, biologiya və fizika laboratoriyalarında quraşdırılan avadanlıqlar bu fənlər üzrə biliklərin daha dərindən mənimsənilməsinə kömək edir, hərbi kabinədə və idman zalında yaradılan şərait şagirdlərin vətənpərvər, ilkin hərbi biliklərə malik və sağlam gənclik kimi böyüməsinə imkan verir.

Sərxanlının 80 yaşlı sakini, ömrünü pedaqoji fəaliyyətə həsr etmiş Vəli Əliyev deyir:

– Ustasız sənətkarlıq, sərkərdəsiz ordu, təhsilsiz isə inkişaf ola bilməz. Əbəs yerə demirlər ki, təhsilə qayğı olmayan ölkədə inkişafdan danışmaq mümkün deyil. Qürur hissi duyuram ki, bu gün kəndimizdə belə gözəl, hər cür şəraitə malik məktəb binası tikilib.

İki mərtəbədən ibarət həkim ambulatoriyasının istifadəyə verilməsi də kənd sakinlərinin böyük sevincinə səbəb olub. Tibb işçiləri kənddə gigiyenik qaydalara əməl edilməsini diqqətdə saxlayır, səhiyyə maarifi işinə ciddi önəm verirlər. Ambulatoriya lazımi tibbi avadanlıqlarla təmin olunub. Hazırda burada 9 tibb işçisi sakinlərə xidmət göstərir.

Quruculuq tədbirlərindən biri də ikimərtəbəli yeni kənd mərkəzinin binasıdır. Mərkəzdə 4 mindən artıq fondu olan kitabxananın, polis və baytarlıq məntəqələrinin, eləcə də rabitə evinin fəaliyyəti təşkil olunub. Binanın ikinci mərtəbəsində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kənd mədəniyyət evi üçün iş otaqları, 70 yerlik iclas zalı yerləşir.

Sərxanlıda böyük sevinc hissi yaşadan yeni obyektlərdən biri də xidmət mərkəzidir. Burada bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Beş nəfərin çalışdığı xidmət mərkəzində muxtar respublikada istehsal olunan keyfiyyətli məhsulların satışına üstünlük verilir.

***İnsanları zəhmətkeş və qonaqpərvər, süfrələri bərəkətli, təbii gözəllikləri gözoxşayan bu kənddən bir-iki saat ərzində aldığım təəssüratlar belə oldu. Hiss etdim ki, öz qayğıları ilə yaşayan, qurub-yaradan Sərxanlı sakinləri doğulduqları, məskən saldıqları yurd yerinə qəlbən bağlanan insanlardır. Təbii ki, bunun arxasında sosial-iqtisadi inkişafımız, düzgün müəyyənləşdirilmiş siyasət və hərtərəfli dövlət qayğısı dayanır. Kənd adamları muxtar respublikamızda gedən prosesləri ürəkdən dəstəkləyirlər. Regionda insan amilinə qayğı onları da muxtar diyarımızın daha da çiçəklənməsinə töhfələrini verməyə ruhlandırıb. Qayğı olan yerdə zəhmətə qatlaşıb yaxşı yaşamaq, firavan həyat sürmək isə daha asandır. Elə Sərxanlı sakinləri kimi.***

**Cəfər ƏLİYEV**

***Cəmiyyətin idarəetmə mexanizmləri arasında, şübhəsiz, inzibati və məcburetmə vasitələrindən daha çox sosial imperativlər üzərində formalaşaraq, illərlə insanların yaddaşında və mədəniyyətində möhkəmlənən adət-ənənələrin gücündən istifadənin mühüm rolu vardır. Bu baxımdan işini ehtiyatlı tutub riskli hadisələrə qarşı özünü sığortalamaq inkişaf etmiş cəmiyyətlərdə insanların elə bir tələbatı halına gəlmişdir ki, buna, sözün əsl mənasında, sığorta ənənəsi də demək olar. İnsanların bir fond formalaşdıraraq bədbəxt hadisələrin vurduğu maddi zərərlərə qarşı hazırlıqlı olması hələ yüz illər öncəsindən, qədim dövrlərdə inkişaf edən, sonra isə bütün dünyaya yayılan mədəniyyət kimi artıq bir ənənə halını almışdır.***

# Sığorta ənənəsinin yaradılması hər kəsin vəzifəsidir

İnsan psixologiyası, onun maraq, mənafeləri üzərində qurulmuş davranışları kifayət qədər mürəkkəbdir və onlara diqqətlə yanaşanda bir-birindən fərqli təzahürlər müşahidə olunmaqdadır. Risklərə, onların vurduğu maddi zərərlərə qarşı ehtiyatlı olmaqla sığortalanmağın digər bir tələbatla, məsələn, soyuq havada yola çıxarkən isti geyim qayğısına qalmaqla ilk baxışda oxşar cəhətləri olmasa da, onların hər ikisinin məzmunu gözlənilməz hadisələrə qarşı hazırlıqlı olmaqdan ibarətdir. Əgər birinci halda tamamilə təsadüfi, çətin proqnoz edilən hadisələrə qarşı hazırlıqlı olmaqdan söhbət gedirsə, ikinci halda görülən ehtiyat tədbirləri insanların həyat tərzində, şüurunda möhkəmlənmiş hadisəyə əvvəlcədən hazırlıq kimi bir adət formasını almışdır. Heç kim kiçik bir unutqanlıq nəticəsində özünə və ailə üzvlərinə dəyə biləcək zərərləri düşünmək belə istəmir. Amma halbuki dünyada hər gün izlədiyimiz xəbərlərdə kifayət qədər sayda təbii və texnogen xarakterli hadisələrə rast gəlinir ki, bunların da nəticəsində insanlara külli miqdarda maddi zərərlər dəyir. Bu isə, öz növbəsində, cəmiyyətdə sığorta olunmağa qarşı daha həssas bir münasibət formalaşmasına gətirib çıxarır. Məhz bu həssas münasibətin nəticəsidir ki, bu gün inkişaf etmiş cəmiyyətlərdə nəinki avtomobil, yaxud daşınmaz əmlak sahibi öz mülki məsuliyyətinin sığortasını təxirə salmır, hətta birgünlük avtobus və ya qatarla səyahətin və ya iki saatlıq bir tədbirdə iştirak edən mütəxəssisin sığorta müqaviləsi olmadıqda buna rəğbətlə yanaşılmır. Çünki ilk baxışda çox sadə görünən, ancaq qəfil bir hadisənin, məsələn, güclü külək nəticəsində hansı bədbəxt hadisələr baş verə biləcəyini kim deyə bilər ki? Heç uzağa getməyək. Güclü külək və digər hadisələr nəticəsində üzərindən elektrik xətlərinin keçdiyi bəzi tikililərdə qəfildən baş verə biləcək bir hadisənin nəticəsini təsəvvür etmək çətin deyil. Ona görə də sığorta ənənəsi dedikdə insanların daha çox ehtimalı az olan, lakin baş verməsi hər an mümkün olan təhlükələrə qarşı özünü sığortalaması və bunu gündəlik adət halına gətirməsi başa düşülür.

Kitab və qiraət həvəskarlarına "Merfi qanunları" deyilən kitab yaxşı tanışdır. Burada maraqlı bir ifadə vardır: "Əlində dondurma yeyən uşaq heç vaxt onu süpürülməmiş döşəməyə atmaz". Bu ifadədəki məna isə məlumdur: daşınmaz əmlakın, yaxud avtomobilin sığorta müqaviləsi müddətində heç bir hadisə baş vermədiyi halda müqavilə müddəti bitəndən bir gün deyil, hətta bir saat sonra baş verə biləcək bir hadisənin kim zəmanətçisi ola bilər ki? Ona görə də vaxtında sığorta olunmaqla, sığorta müqaviləsinin qurtardığı anda yenidən müqavilə bağlanılmasını təmin etməklə sığorta şəhadətnaməsi almağın digər vacib işlər kimi bu gündən sabaha təxirə salınması, sadə dillə desək, səhlənkarlıqdır. Ancaq halbuki sığorta şəhadətnaməsi bir çox iqtisadi münasibətlərdə rastlaşdığımız digər sənədlər, məsələn, müxtəlif etibarnamələr kimi çox vacib bir sənəddir. Bu müqavilənin də öz şərtləri vardır. Müəyyən bir kiçik ödənişlə gələcəkdə baş verə biləcək qəfil hadisələrin vurduğu maddi zərərlərin əvəzini məhz qüvvədə olan sığorta müqaviləsi şəhadətnaməsi əsasında alırıq. Bu, həmin sənədin əhəmiyyətini bir daha göstərir. Söz yox ki, digər sənədlər kimi, məsələn, müddəti bircə gün keçmiş pasportla xaricə səyahət edə bilmədiyimiz kimi, müqavilə müddəti bitmiş sığorta müqaviləsinin həmin gün yenilənməsi qayğısına qalınması da ola biləcək qəfil hadisələr qarşısında çətin vəziyyətə düşməməyə imkan verir. Çünki heç bir qəfil hadisənin gəlişini əvvəlcədən xəbər vermək mümkün deyil.

Cəmiyyətdə müsbət sığorta ənənəsini yaratmaq, onu inkişaf etdirmək üçün təkcə bir qurumun deyil, bütün insanların səyləri tələb olunur. Bunun üçün cəmiyyətimizdə formalaşmış müsbət elementlərlə zəngin olan təcrübə də vardır. Məsələn, bir çox insanlar ünsiyyətdə olduqları, yaxud yeni tanış olduqları insanların maddi imkanlarının təsdiqi kimi dərhal onun özünə məxsus olan evi, dükanı və ya bahalı avtomobili ilə maraqlanırlar. Ancaq nədənsə sığortası olmayan evin və ya avtomobilin nə zamansa ola biləcək qəfil bir hadisədən sonrakı dəyəri çox vaxt yada düşmür. Halbuki dəyəri on minlərlə manatla ölçülən daşınmaz əmlakın cəmisi 40 manat dəyərində sığortası ilə bir il müddətində onun dəyərini zəmanət altına almaq olar. Bütün qiymətli maddi aktivləri zəmanət altına almaq isə ən yaxşı sığorta ənənəsidir.

**Əli CABBAROV**

Məhəmməd Tağı Sidqi – 160

# Orda Sidqi uyuyur...

*“Cənazənin qabağınca “Məktəbi-tərbiyə”nin şagirdləri 120-dən ziyadə barmaq boyda balalar əllərində siparə, nəhayət, xunavər və məlaləngiz sövt ilə Kəlami-Şərif oxuyaraq novhə edəndə məktəb balaları və camaat səs-səsə verib şövqlə ağlayıb məscidə bir şur, qülqülə saldılar ki, imdiyədək bir kəsin vəfatı əhaliyə təsir etməmişdi...” (Əsəd ağa Kəngərlinin “Şərqi-Rus” qəzetinə məktubundan)*



Onun 160 illik yubileyini qeyd etdiyimiz bu günlərdə yolumu Sidqinin məzarının yanından salıram. Nə qəribədir, Sidqi 1892-ci ildə Ordubadda “Əxtər” adlı yeni üsullu məktəbi açarkən, 1894-cü ildə Naxçıvanda “Məktəbi-tərbiyə”ni yaradarkən, ümumilikdə, bütün ömrü boyunca köhnəliyin, xürafatın qarşısında tək dayanmış və millətinin maariflənməsi, təfəkkürünün işıqlanması yolunda ömrünü şam kimi əritmişdi. Bu gün Sidqinin məzarı da bir yolun kənarında tənha dayanır. Bəzən yanından keçən məktəbliləri, tələbələri görərkən ruhu gülümsəyir Sidqinin... Bəzən isə ötüb keçənlərin bu məzarın fərqində belə olmamalarının təəssüfü ilə qaşlarını çatır Sidqi... Müəllimlər müəllimi Məhəmməd Tağı Sidqi indi məzarının olduğu yerdə dəfn olunarkən orada “Ağa-bəy məzarlığı” yerləşirdi. Sonralar sovetlərin məqsədli siyasəti nəticəsində oradakı məzarlıqlar dağıdılanda Sidqi tənha qaldı. Bir yol kənarında tənha qalmış o məzarı unutdurmaq millət olaraq bizə ziyalılarımızı və ziyalılığımızı unutdurmaq planının kiçik bir parçası idi... Axı bizə təlqin olunan o idi ki, Azərbaycana, onun ucqarlarına millət balaları üçün məktəbi, maarifi bolşevizm gətirmişdi. Bizə təlqin olunan o idi ki, sovetlərə qədər biz cəhalət girdabında sürünmüşdük və bu girdabla hamımız birmənalı razılaşmışdıq. Beynimizə yerləşdirilən bu düşüncə ilə Məhəmməd Tağı Sidqi zirvəsi bir-birini inkar edirdi. İstər-istəməz Sidqinin məzarını görən, onun kimliyi ilə maraqlanan insanlar bizdə sovetlərdən öncə də təhsilin olduğunun fərqində olacaqdılar. Yaxınlıqda yerləşən Naxçıvan xanlarının məzarlarını müxtəlif dövrlərdə və müxtəlif bəhanələrlə yer üzündən silmək mümkün olsa da, Sidqinin məzarı tənha da olsa, “ayaq üstündə dayana bildi”. Sidqini zəhərləyən rus çarizminin şəkildəyişmiş forması olan sovet-rus imperializmi onu yıxa bilmədi. İşğalçılar onun fiziki varlığına son qoya bilsələr də, o işğalçıların varisləri onun mənəvi varlığını yox edə bilmədilər.

Heykəli-insana nəzər salan Sidqinin anadan olmasından 160 il keçəndən sonra belə, onun varlığı, onun maarifçilik ideyaları yenə də xatırlanır. Sidqi irsinə sahib çıxan şəxsiyyətlərin onun həyat və yaradıcılığının öyrənilməsi üçün gördüyü işlər bütün ziyalılar tərəfindən minnətdarlıqla qarşılanır. Onun yubileyləri dövlət səviyyəsində qeyd olunub, məzarı bərpa edilib. Amma, məncə, etiraf etməyin zamanıdır. Bu gün Sidqinin yol kənarında tənha dayanan məzarını çoxumuz – biz gənclərin bir çoxu xatırlamırıq. Xatırlamaq üçün bilməyimiz lazımdır, bizə göstərilməyi lazımdır. Bəlkə də, kimsə görüb, amma mən bircə dəfə də olsun, bu gün Sidqi ideyalarının işığında fəaliyyət göstərən bir müəllimimizi görməmişəm ki, şagirdlərini bu məzarın yanına gətirsin və “burada Sidqi uyuyur” desin.

*Naxçıvan şəhərinin ən uca yerində dəfn edilməyə layiq şəxsiyyətlərdən biri olan Sidqi bir zamanlar şəhərin ən çökək yerlərindən birində dəfn olunub. Nədənsə bəzən mənə elə gəlir ki, bu çökəklikdən Məhəmməd Tağı Sidqi Naxçıvanda tikilən, yenidən qurulan təhsil ocaqlarını görə bilmir. Deməli, təhsilimizin inkişafını ona göstərmək, onun ruhunu şad etmək üçün biz – müəllimlər, tələbələr və şagirdlər ona tərəf getməli və ona bu inkişafdan danışmalıyıq.*

**Elnur KƏLBİZADƏ**

# Burda ədəbi irsimiz qorunur...

***Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixinin və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Mədəniyyətimizin, elmimizin, tariximizin, ədəbiyyat və incəsənətimizin öyrənilməsi və yayılması işində muzeylərin rolu əvəzsizdir. Çünki muzeylər insanların dünyagörüşünün formalaşmasında və inkişafında, onların mədəni, mənəvi, bədii tərbiyəsində əhəmiyyətli işlər görürlər. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş şəbəkəyə malik olub, respublikamızın bütün bölgələrini əhatə edir.***






Naxçıvan Muxtar Respublikasında muzey və muzeyşünaslıq işinə çox əhəmiyyətli, lazımlı bir iş kimi yanaşılmış, muzey quruculuğu işinin təşkili geniş vüsət almışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində çox qiymətli və zəngin eksponatlara malik 25 muzey fəaliyyət göstərir. Bu muzeylərdən biri də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, həmçinin müasir şair və yazıçılarımızın həyatını, yaradıcılığını öyrənmək və öyrətmək, geniş təbliğ etmək, ədəbi-mədəni irsimizi toplamaq, qoruyub saxlamaq məqsədilə yaradılan və Naxçıvan şəhərində fəaliyyət göstərən Ədəbiyyat Muzeyidir.

Hələ sovet dövründə Azərbaycan hökuməti 1965-ci il dekabrın 25-də Naxçıvanda Azərbaycan Ədəbiyyatı Muzeyinin açılmasına qərar verdi. Görkəmli ədib Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə 1967-ci il iyun ayının 12-də Naxçıvan şəhərində muzeyin rəsmi açılışı oldu, muzeyə Cəlil Məmmədquluzadənin adı verildi. Elm, mədəniyyət, incəsənət xadimlərimizin, yazıçı və şairlərimizin xatirəsini əbədiləşdirmək və daim yad etmək məqsədilə yaradılan muzey o vaxtdan indiyə bu missiyasını uğurla yerinə yetirir.

Bu günlərdə muzeyin fəaliyyəti ilə tanış olmaq üçün həmin ünvanda olduq. Muzeyin baş fond mühafizi Xanım İsmayılova bizimlə söhbətində bildirdi ki, dövlətimizin diqqət və qayğısı sayəsində muxtar respublikamızda quruculuq işləri aparılır, uzun müddət fəaliyyət göstərən mədəni-maarif müəssisələri yenidən qurulur. Məhz bunun bariz nümunəsidir ki, bizim muzeyə də əzəmətli, gözəl bir bina verilmiş, 2008-ci ildə muzeyin yeni binasının açılışı olmuşdur. İki mərtəbə və 3 zaldan ibarət olan muzey ekspozisiyası xronoloji ardıcıllıqla Azərbaycan ədəbiyyatının qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər keçdiyi yolu özündə əks etdirir. Muzeyimiz fəaliyyətə başladığı ilk gündən tamaşaçıların rəğbətini qazanmışdır. Xalqımızın maddi-mənəvi sərvətini qoruyub saxlamaq, ədəbi-bədii irsimizi təbliğ etmək məqsədilə muzey əməkdaşları bir çox işlər görmüşlər. Muzey işçiləri görkəmli elm, mədəniyyət, incəsənət xadimləri ilə, ədəbiyyatşünas alimlərlə, yazıçı və şairlərlə əlaqələr saxlayır, daim axtarışda olur, toplama, tədqiqat işləri aparır, elmi məqalələr çap etdirirlər.

Muzeydə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik və ictimai-siyasi fəaliyyətindən bəhs edən “Heydər Əliyev fondu”, Naxçıvan teatrının yaranmasının 125 illik yubileyi ilə əlaqədar “Naxçıvan Dövlət Musiqili Dram Teatrının fondu”, dahi Azərbaycan şairi Nizami Gəncəvinin, yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, ədəbiyyatşünas alimlərdən Əziz Şərifin, Məmmədcəfər Cəfərovun, Abbas Zamanovun, Lətif Hüseynzadənin, İsa Həbibbəylinin, Xalq yazıçısı və şairlərindən Məmməd Arazın, Hüseyn İbrahimovun, İslam Səfərlinin həyat və yaradıcılığına həsr olunmuş fondlar yaradılmışdır.

Müsahibimiz vurğuladı ki, bu ilin ilk altı ayı ərzində muzeyin fonduna 46 eksponat daxil olmuşdur. Bunlardan 30-u çap əsəri, 10-u foto, 1-i təsviri sənət əsəri, 5-i isə sənəddir. Hazırda muzeyin fondunda və ekspozisiyasında 18 min 783 ədəd eksponat vardır. Muzeyin fonduna daxil olan eksponatlara əşyaların daimi mühafizəsi üçün qəbuletmə aktları, fond və satınalma komissiyasının protokolları yazılıb, əşyalar muzeyin daxilolma və ayrı-ayrı elmi inventar kitablarına işlənilib, elmi təsvirlər verməklə pasportlar, kataloqlar yaradılıb.

Baş fond mühafizi qeyd etdi ki, muzeyin fondu və ekspozisiyası ilə yaxından tanış olmaq üçün bir zamanlar buranı ziyarət edən Cəlil Məmmədquluzadə irsinin tədqiqatçıları muzey haqqında çox maraqlı fikirlər söyləmişlər. Onlardan akademik Məmmədcəfər Cəfərov deyib ki, “bizim müdrik Mirzə Cəlil sağ olsaydı, deyərdi: Qədirşünaslıq çox yaxşı şeydir, çox yaxşı şeydir... Sağ olun, bir-birinizin qədrini bilin!..” Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Abbas Zamanov isə “Muzey gözəldir. Sağ olsun, təşkilatçıları. Bu muzey Mirzə Cəlil üçün ən yaxşı hədiyyədir” söyləyib. Görkəmli ədəbiyyatşünas alim Əziz Şərif muzeyi ziyarət edərkən fikirlərini belə bildirib: “Böyük yazıçı və mütəfəkkirimiz Cəlil Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat Muzeyini eşqlə təşkil edib düzəldənlərə eşq olsun”.

Həmsöhbətimiz bildirir ki, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi muzey tərəfindən də qeyd olunur. Ötən dövr ərzində bu münasibətlə Naxçıvan ədəbi mühitinin nümayəndələri ilə birlikdə tədbirlər keçirilmiş, yaradıcı insanlar öz yeni əsərlərini muzeyə vermişlər. Bundan başqa, muzeyin ekspozisiyasında geniş tərtibatlı “Naxçıvan Muxtar Respublikası – 90” başlıqlı sərgi hazırlanmışdır. Sərgidə Naxçıvan ədəbi mühitinin 90 ildə əldə etdiyi nailiyyətlər öz əksini tapmışdır. Eyni zamanda muzeydə ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı ilə “Muxtariyyət ili” ilə əlaqədar açıq dərslər keçilmişdir.

Buradakı Naxçıvan teatrının tarixini əks etdirən fondda Azərbaycan, rus, Avropa, o cümlədən dünya klassikləri dramaturgiyasından bəhs edən bir-birindən maraqlı fotolar, afişalar, proqramlar, dəvətnamələr, eskizlər, maketlər, ömürlərini teatra bağlayan görkəmli səhnə ustalarının fəaliyyətindən bəhs edən bukletlər, kitablar və digər qiymətli eksponatlar mühafizə olunur.

Müsahibim sonda qeyd etdi ki, muzey əməkdaşları tərəfindən Məhəmməd Füzuli, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Hüseyn İbrahimova aid eksponatlar araşdırılmış, onların həyat və yaradıcılıqlarını əks etdirən elmi mühazirə mətnləri hazırlanmışdır. Bu elmi mühazirə mətnlərinin hazırlanması yazıçı və şairlərimizin ədəbi-bədii irsinin daha dərindən öyrənilməsi və təbliği işində mühüm rol oynayır. Bundan əlavə, muzey tərəfindən muxtar respublikada fəaliyyət göstərən ədəbiyyat profilli muzeylərə əməli-metodik köməkliklər də göstərilir.

**İnanırıq ki, böyük ədibin adını daşıyan Ədəbiyyat Muzeyi bundan sonra da öz fəaliyyəti ilə muxtar respublikamızın ədəbi mühitinin inkişafında öz sözünü deyəcək, ədəbiyyatsevərlər üçün doğma ünvan olacaq.**

**Sona MİRZƏYEVA**

*Dünən Naxçıvan Dövlət Universitetində Milli Musiqi Günü qeyd olunub. Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu günün tarixindən danışaraq qeyd edib ki, dahi Üzeyir Hacıbəylinin doğum günü 1995-ci ildən “Milli Musiqi Günü” kimi qeyd olunur.*

## Naxçıvan Dövlət Universitetində Milli Musiqi Günü qeyd olunub



Musiqi təlimi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru İsmayıl Mürsəlov “Üzeyir Hacıbəyli və Azərbaycan musiqi mədəniyyəti” adlı məruzəsində vurğulayıb ki, dahi bəstəkarımız, professional klassik musiqimizin banisi Üzeyir Hacıbəylinin 1908-ci ildə tamaşaya qoyulmuş “Leyli və Məcnun” operası ilə milli opera sənətinin əsası qoyulub. “Leyli və Məcnun” operası təkcə Azərbaycanda deyil, ümumən, bütün müsəlman Şərqində ilk opera idi. Üzeyir Hacıbəyli isə musiqi tariximizə Azərbaycan musiqi mədəniyyətinin klassiki, onun yeni mərhələsinə təkan vermiş, milli musiqi ənənələrini Avropa musiqisinin qanunauyğunluqları ilə ilk dəfə üzvi surətdə birləşdirmiş dahi sənətkar kimi daxil olub. Kafedra müdirinin sözlərinə görə, Azərbaycan professional musiqi yaradıcılığının təşəkkülü və inkişafı – bir çox janrların meydana gəlməsi və təkamülü, professional kollektivlərin yaranması Üzeyir Hacıbəylinin adı ilə bağlıdır.

Tədbirin bədii hissəsində musiqi mədəniyyətimizin korifeyi Üzeyir Hacıbəylinin “Arazbarı” muğamı, İncəsənət fakültəsinin tələbəsi Bəsti Qasımovanın ifasında “Arşın mal alan” operettasından Gülçöhrənin ariyası, Musiqi təlimi kafedrasının müəllimi Əli Davudinin ifasında “Koroğlu” operasından Həsən xanın ariyası və digər əsərlər səsləndirilib.

**Mina QASIMOVA**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 805